# Sağlamlıq imkanları məhdud uşaqların təsviri fəaliyyətinin özünəməxsus xüsusiyyətləri

**Samirə Mustafa qızı Əliyeva**
*filologiya üzrə fəlsəfə doktoru,*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
**E-mail:** dilchilik2001@gmail.com

**Rəyçilər:** filol.ü.f.d., dos. A.X. Ramazanova,
filol.ü.f.d., dos. Ş.Ə. Albalıyev

**Açar sözlər:** fiziki imkanları məhdud uşaqlar, təsviri fəaliyyət, pedaqogika, inkişaf, priyom və vasitə

**Ключевые слова:** дети с ограниченными возможностями здоровья, изобразительная деятельность, педагогика, развитие, средство

**Key words:** children with disabilities, visual activities, pedagogy, development, fine art

Fiziki imkanları məhdud insanların cəmiyyətə adaptasiya olunmasının fərqli üsul və vasitələri mövcuddur ki. Onlardan biri də, haqqında danışdığımız təsviri fəaliyyətinin təmin edilməsidir. Çünki, bildiyimiz kimi, şəxsiyyətin formalaşması prosesində mədəniyyət və incəsənət çox böyük qüvvəyə malikdir. Çünki məhz incəsənət insanlarda mənəvi dünyanın formalaşmasına şərait yaradır, onun mənəvi və estetik dəyərlər sistemini yaratmağa yardımçı olur. Bilirik ki, fiziki imkanları məhdud uşaqlar bu cəhətdən daha çox qayğıya və diqqətə möhtacdırlar, çünki onların mədəniyyət dünyasına adaptasiya olmaları daha bir müşkül problemdir.

Fiziki imkanları məhdud uşaqların təsviri fəaliyyəti. Uşaqların təsviri fəaliyyəti onların bir şəxsiyyət kimi formalaşması ilə birbaşa əlaqəlidir. Çünki rəsm prosesində insanın ayrıca bir fiziki funksiyası və ya ayrıca bir psixi proses, məsələn, qavrama, yaddaş, diqqət, təfəkkür və s. deyil, insan şəxsiyyəti bütövlükdə iştirak edir. Uşaq rəsmi problemi hər zaman yalnız pedaqoqları deyil, həm də sənətşünasları, həkimləri, psixoloqları maraqlandırmışdır və bu sahədə fundamental tədqiqatlar meydana gəlmişdir. Amma bu tədqiqatların gəldiyi yekdil rəy ondan ibarət olmuşdur ki, sağlamlıq imkanları məhdud uşaqların təsviri fəaliyyətinin inkişaf mərhələləri heç də əlahiddə bir şey olmayıb, sağlam uşaqlardan heç nə ilə fərqlənmir. Başqa sözlə, sağlamlıq imkanları məhdud uşaqlar da təsviri fəaliyyətin inkişafında sağlam uşaqların keçdiyi mərhələlərdən keçirlər.

Bu halda onların tədris prosesi də sağlam uşaqların tədris posesindən heç nə ilə fərqlənməməlidir. Amma təbii ki, hər bir halda sağlamlıq imkanları məhdud uşaqların təsviri fəaliyyəti və rəsm bacarıqlarının formalaşması prosesinin bir çox özünəməxsus cəhətləri vardır. Bu prosesdə ilk növbədə sağlamlıq imkanları məhdud uşaqların fərdi cəhətləri mütləq şəkildə nəzərə alınmalıdır. Bu da, adətən fiziki və ya əqli inkişafın gecikməsi ilə əlaqədar olur.

Sağlamlıq imkanları məhdud uşaqların təsviri fəaliyyətinin formalaşdırılması mərhələlərini müəyyənləşdirərkən etalon kimi normal təsviri fəaliyyətin formalaşdırılması mərhələləri götürülür. Amma bəzi nüanslar nəzərə alınır. Görkəmli rus psixoloqu L.Viqotski uşaq təsviri fəaliyyətinin mərhələlərini təyin edərkən bu sahəyə yeni bir anlayış gətirir. Onun fikrincə, "ali psixi funksiyalar" mövcuddur ki, bu səriştələr insanın ictimai-sosial inkişafı prosesində əldə olan bacarıqlardır. Məhz uşaqların rəsm bacarıqları bu "ali psixi funksiyalar"a daxi olunan proseslərdən biridir. Alim öz tədqiqatında (1, 35) uşaq rəsm qabiliyyətinin formalaşdırılma-

sında dörd mərhələni fərqləndirir və onları belə müəyyən edir:

— Təsviri sənətin birinci mərhələsi sxematik, yaddaşa uyğun şəkillərin çəkilməsini ehtiva edir. Bu rəsmlər adətən reallıqdan uzaq olur.

— İkinci mərhələdə artıq forma və xətt hissləri formalaşır, rəsm yenə də kortəbii olur, amma tam və hissə qavraması baş verir.

— Üçüncü mərhələdə isə artıq kortəbiilik itir, xətt və sxemlərin əvəzinə rəsmdə siluet və ya bədən konturları hiss olunmağa başlayır.

— Dördüncü mərhələ adətən 11-13 yaşlı uşaqlarda baş verir, rəsmdə artıq plastik təsvirin bütün cəhətlərini sezmək olur. Bu yaşda uşaqlar rəngləri tam şəkildə verə bilir, hərəkəti göstərə bilir və s.

Uşaqların rəsm fəaliyyətinin formalaşdırılması zamanı estetik inkişafın iki istiqaməti nəzərə alınmalıdır. Uşağın öz bacarıq və qabiliyyəti, öz yaradıcılığı və onun incəsənəti qavrama qabiliyyəti. Sağlamlıq imkanları məhdud uşaqlarda təsviri fəaliyyəti formalaşdıran zaman uşağın fərdi sərhədlərini genişləndirmək, sosial təcrübəsini artırmaq, həyatının bəzi tərəflərini bir qədər fərqli qurmaq və s. lazımdır. Bu yollarla onun emosiyalarının müsbət tərəfə artmasına nail olmaq mümkündür ki, bu da son nəticədə onun rəsm yaradıcılığında mütləq şəkildə özünü göstərəcəkdir. Çünki sağlamlıq imkanları məhdud uşaqlara subyektiv səbəblərdən həmin müsbət emosiyaları başqa şəkildə ifadə etmək mümkünsüz olur.

Pedaqoji ədəbiyyatda fiziki qüsurlar üzrə təsviri fəaliyyətin formalaşdırılması yolları ayrıca araşdırılmışdır (2). Bu cəhətdən, eşitmə, görmə, əqli və s. qüsurları olan uşaqlarda sözügedən problemlə bağlı kifayət qədər araşdırma aparılmışdır. Bundan əlavə, uşaq serebral iflici və autizmdən əziyyət çəkən uşaqlar üçün də fərqli metodik göstərişlər yaradılmışdır.

Uşaqlarda rəsm fəaliyyətinin formalaşdırılması prosesi məktəbəqədərki hazırlıq dövründən başlayır. Uşaq evi tərk edib məktəbəqədər hazırlıq müəssisəsinə daxil olduğu andan onda rəsm qabiliyyətlərinin formalaşdırılmasına başlamaq lazımdır. Uşaq bağçasında uşaqların incəsənətin müxtəlif nümunələri ilə tanışlıq mərhələsi başlayır. Adətən bu proses daha erkən yaşlarda evdə baş verir. Amma təbii ki, sağlamlıq imkanları məhdud uşaqlarda bu tanışlıq prosesi bir qədər fərqli gedir. Çünki sağlamlıq imkanları məhdud uşaqlar qavrama qabiliyyətinin gec inkişafı, motorikanın ləngiməsi, orientasiya hissinin olmaması və s.-dən əziyyət çəkə bilərlər.

Məktəbəqədərki hazırlıq dövründə sağlamlıq imkanları məhdud uşaqların təsviri fəaliyyəti daha çox manipulyativ xarakter daşıyır – uşaqlar xaotik hərəkət edirlər – kağızı əzir, karandaşlarla səs salır, kortəbii xətlər və nöqtələr çəkirlər. Sağlamlıq imkanları məhdud uşaqların rəsm fəaliyyətinin inkişafı həmin uşağın aktiv fəaliyyət zamanı qavrama qabiliyyətindən birbaşa asılı olur. Buraya incəsənət nümunələrinin qavrama qabiliyyəti daxil olur.

Təsviri fəaliyyətin formalaşdırılması isə uşağa dünyanı bütün rəngləri, səsləri, hissləri, formaları ilə dərk etməyə yardımçı olur. Uşaqlarda rəsm bacarıqlarının yaradılması onun estetik emosiyaları və ətrafı qiymətləndirməsi ilə əlaqədardır. Məhz bu emosiyalar və qiymətləndirmə bacarığı bədii nümunələrin, yəni rəsm əsərlərinin yaranması ilə nəticələnə bilər.

Sağlamlıq imkanları məhdud uşaqlarda rəsm qabiliyyətinin səviyyələri. Elmi-pedaqoji ədəbiyyatda sağlamlıq imkanları məhdud uşaqlarda rəsm qabiliyyətinin səviyyələri müəyyənləşdirilmişdir. Bu fikirlərin və bölgülərin hamısını ümumiləşdirərək aşağıdakı səviyyələri fərqləndirmək mümkündür:

— *rəsm qabiliyyətinin yüksək səviyyəsi.* Bu səviyyədə olan uşaqlar öz rəsmlərində mürəkkəb süjet qura bilir, kağızın ölçüləri ilə işləməyi bacarır, rəsmin kompozisiyasını qurur, hərəkəti verə bilirlər. Ən əsası isə rənglə işləməyi bacarırlar.

— *rəsm qabiliyyətinin orta səviyyəsi.* Bu səviyyədə də uşaqlar üst səviyyədəki kimi süjet qura bilirlər, rəng və çalarlarla işləməyi bacarırlar, dinamikanı və ya statikanı, jest və mimikanı verə bilirlər. Amma üst səviyyədən fərqli olaraq kağızla işləməyi bacarmırlar, yəni kompozisiya qura bilmirlər.

— *rəsm qabiliyyətinin aşağı səviyyəsi.* Nəhayət, aşağı səviyyədə sağlamlıq imkanları məhdud uşaqlar süjet qura bilsələr də, adətən bu tamamilə sadə süjet olur. Bu süjetdə cəmi bir-iki fiqur iştirak edir, bu fiqurların proporsiyaları isə pozulmuş olur. Rəng seçimi çox məhdud olur. Bu səviyyədə rəsm qabiliyyətli uşaqlar bir-iki rəngdən istifadə edə bilir. Müstəqil çalışa bilmirlər.

Beləliklə, sağlamlıq imkanları məhdud uşaqlarda rəsm qabiliyyətinin formalaşdırılması üçün vacib olan cəhətlərdən biri uşaqlarda müqayisə etmək bacarığının yaradılmasıdır. Texniki cəhətdən bacarıqlı olmaq və uğurlar qazanmaq üçün uşaqlar öz görmə qabiliyyətlərinə əsaslanaraq əsas və ikinci planda olanı fərqləndirməli, cisim, predmet və hadisələr, ətraf gerçəklik haqqında ilkin biliyə malik olmalı, obrazlı və məcazi düşünmə qabiliyyətinə malik olmalıdırlar.

**Məqalənin aktuallığı.** Fiziki imkanları məhdud insanların, xüsusilə uşaqların müxtəlif sahələrdə intellektual, estetik, mənəvi, sosial inkişafını təmin etmək cəmiyyət qarşısında duran ən aktual məsələlərdəndir. Bu isə öz növbəsində fiziki imkanları məhdud insanlara cəmiyyətə rahat adaptasiya etməyə imkanlar yaradır. Bu baxımdan məqalədə qoyulan problem çağdaş Azərbaycan pedaqoji fikri üçün aktual və həllini gözləyən məsələlərdəndir.

**Məqalənin elmi yeniliyi.** Məqalədə qarşıya qoyulan əsas məqsəd sağlamlıq imkanları məhdud uşaqların təsviri fəaliyyətinin özünəməxsus xüsusiyyətlərini öyrənməkdir. Bu problemin pedaqoji tədqiqat müstəvisinə gətirilməsi elmi yeniliyi ilə seçilir. Digər elmi yenilik isə sağlamlıq imkanları məhdud uşaqların təsviri fəaliyyətinin qurulması, pedaqoji diaqnostika aparılması və s. məsələlərə yeni baxış müstəvisindən yanaşılmasıdır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Bu məqalədən pedaqogika elminin aktual problemlərinin araşdırılması zamanı nəzəri qaynaq kimi istifadə etmək mümkündür. Bundan əlavə, məqalədən sağlamlıq imkanları məhdud uşaqların təsviri fəaliyyətinin formalaşdırılması yollarının öyrədilməsində isə praktiki dərs vəsaiti kimi istifadə etmək olar.

## Ədəbiyyat

1. Выготский Л.С. Педагогическая психология / Под ред. В.В. Давыдова. М.: Педагогика, 1991, 480 с.

2. Лыкова И.А. Ребёнок и культура: смысловое общение на языке художественных образов, знаков исимволов // Электронный научный журнал «Педагогика искусства» http:// www.art-education.ru/AEmagazine. 2013, № 2.

**С.М. Алиева**

## Характерные особенности изобразительной деятельности детей с ОВЗ

## Резюме

В статье рассказывается о путях развития детей с ограниченными возможностями здоровья. Это считается одной из актуальных тем современной педагогики. Автор старается исследовать своеобразные особенности изобразительной деятельности детей с ограниченными возможностями здоровья, а также определить степени уровни развития изобразительных умений для таких детей. А это, в свою очередь, Это поможет проведению педагогической диагностики. В статье раскрывается роль изобразительного искусства в развитии детей с ограниченными вожмоностями здоровья. Автор приходит к выводу, что грамотно проведенная и организованная изобразительная деятельность детей оказывает огромное влияние на все стороны развития детей, в том числе, интеллектуальное, художественно-эстетическое, нравственное и т.д.

**S.M. Aliyeva**

## Characteristics of visual activities of children with disabilities

## Summary

The article describes ways of developing children with disabilities. This is considered one of the topical questions of modern pedagogy. The author tries to explore the peculiar features of the visual activities of children with disabilities, as well as to determine the levels of development of visual skills for such children. And this, will help to carry out pedagogical diagnostics. The article reveals the role of fine arts in the development of children with disabilities. The author concludes that the well-conducted and organized visual activities of children have a huge impact on all aspects of children 's development, including intellectual, artistic and aesthetic, moral, etc.

**Redaksiyaya daxil olub:** 14.11.2019